MUHAMMƏD BİN SALEH ƏL-USEYMİN

# İNSAN FİTRƏTİNİN TƏLƏB ETDİYİ VƏ İSLAM ŞƏRİƏTİNİN DƏ BUNU QƏBUL ETDİYİ HAQLAR

*Nicat Həşimov*

# İNSAN FİTRƏTİNİN TƏLƏB ETDİYİ VƏ İSLAM ŞƏRİƏTİNİN DƏ BUNU QƏBUL ETDİYİ HAQLAR

Müəllif:

**Muhammməd bin Saleh əl-Useymin**

**Tərcümə edən:**

Nicat Həşimov

**Redaktə edən:**

Xumar Ərşadlı

**İxtisas redaktoru:**

Famil Muradov, Sahib Əsədov

© KİTABIN BÜTÜN HÜQUQLARI QORUNUR

***www.tovhid.info***

# « ÖN SÖZ »

إنّ الحمدَ للهِ نَحمَدُهُ، وَنَستَعِينُهُ، وَنَستَغفِرُهُ، وَنَعُوذُ بِاللهِ مِن شُرُورِ أَنفُسِنَا وَمِن سَيِّئَاتِ أَعمَالِنَا... مَن يَهدِهِ اللهُ فَلاَ مُضِلَّ لَهُ، وَمَن يُضلِل فَلاَ هَادِيَ لَهُ، وَأَشهَدُ أَن لاَ إِلَهَ إِلاَّ الله وَحدَهُ لاَ شَرِيكَ لَهُ، وَأَشهَدُ أَنّ مُحَمَّداً عَبدُهُ وَرَسَولُهُ صَلَّى اللهُ عَلَيْهِ وَعَلَى آلِهِ وَأَصْحَابِهِ، وَمَنْ تَبِعَهُمْ بِإِحْسَانٍ وَسَلَّمَ تَسْلِيماً.

Həqiqətən şükür və tərif yalnız Allaha məxsusdur! Biz Ona həmd edir, yalnız Onu köməyə çağırır, Ondan bağışlanma diləyir və ona tövbə edirik, nəfslərimizin şərindən və pis əməllərimizdən qorunmaq üçün də yalnız Ona sığınırıq. Allah kimə hidayət verərsə, o kəs doğru yolda olar, kimi də azdırarsa, o kimsəni doğru yola yönəldən tapılmaz.

Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur, Onun şəriki yoxdur və şahidlik edirəm ki, Muhəmməd (ona Allahın salavatı va salamı olsun) Onun qulu və Elçisidir.

Sonra isə: Həqiqətən ədalətin qorunması və hər bir haqq sahibinə onun barəsində həddi aşmadan və təqsirlik etmədən haqqının verilməsi Allahın dininin gözəlliklərindəndir. Allah bizə ədalətli olmağı, yaxşılıq etməyi və qohumluq əlaqələrini möhkəmləndirməyi əmr etmişdir. Elçilər ədalətlə göndərilmiş, kitablar ədalətlə endirilmiş və dünya və axirət işləri adillik üzərində qurulmuşdur.

Ədalət - hər bir haqq sahibinə haqqını vermək və hər bir kimsəni öz haqlı olduğu mərtəbəyə endirməkdir. Bu yalnız haqları öyrənməklə və haqq sahibinin haqqını verməklə tamamlanır. Bu haqların

mühümlüyünün bəyan edilməsi və qulun bacardığı qədər bu haqları ödəməsi üçün açıqlayırıq: haqlar xülasə olaraq aşağıdakı kimidir:

**1- Allahın haqqı.**

**2- Peyğəmbərin haqqı.**

**3- Valideynlərin haqları.**

**4- Övladların haqları.**

**5- Qohumların haqları.**

**6- Ər-arvad haqları.**

**7- Rəhbərin və rəiyyətin haqqı.**

**8- Qonşuların haqları.**

**9- Ümumi müsəlmanların haqları.**

**10- Qeyri müsəlmanların haqları.**

Bu haqlar, müxtəsər olaraq barəsində danışmaq istədiyimiz haqlardır.

## Birinci haqq

## ALLAHIN HAQQI

Bu, haqlar içərisində ən üstün, ən vacib olanı və ən əzəmətlisidir. Çünki Allahın haqqı dedikdə Yaradan, Əzəmətli, Mülk sahibi olan, bütün Kainatı idarə edən, Varlığı haqq olan, əzəli və əbədi Diri olan, göyləri, yeri və bütün məxluqatı var edən, hər şeyi öz hikməti ilə təqdirində yaradan Allahın haqqı nəzərdə tutulur. O Allah ki, ananın bətnində zülmətlər içərisində olduğun zaman səni nemətləndirdi. Yoxsa bəşər övladılarından heç bir kimsə sənin həyatını ayaqda tutacaq qədər qidanı sənə çatdıra bilməzdi. O Allah sənə ananın sinəsindən süd əmməyi öyrətdi, sənə xeyir və şər yolunu göstərdi, atanı və ananı sənin xidmətində etdi və sənə ağıl və dərk etmə qabiliyyəti kimi nemətlər bəxş etdi ki, bunları qəbul edib faydalanasan.

﴿ وَٱللَّهُ أَخۡرَجَكُم مِّنۢ بُطُونِ أُمَّهَٰتِكُمۡ لَا تَعۡلَمُونَ شَيۡـٔٗا وَجَعَلَ لَكُمُ ٱلسَّمۡعَ وَٱلۡأَبۡصَٰرَ وَٱلۡأَفۡـِٔدَةَ لَعَلَّكُمۡ تَشۡكُرُونَ ﴾

*“Allah sizi analarınızın bətnindən heç bir şey bilmədiyiniz halda çıxartdı və sizə şükür etməyiniz üçün qulaq, göz və qəlb verdi”*[1].

Əgər Allah bir anlıq səndən Öz fəzilətini kəsərsə, həlak olarsan. Bir anlıq Öz rəhmətini sənin üzərindən qaldırarsa, yaşaya bilməzsən. Əgər bu, Allahın sənin üzərində olan fəziləti və sənə olan rəhmətidirsə, onda Onun sənin üzərində olan haqqı ən uca haqqdır. Çünki Onun haqqı səni yaratmasında, səni boya-başa çatdırmasında və sənə yardım

1 “ən-Nəhl”, 78.

etməsindədir. Bununla belə O, səndən nə ruzi, nə də onu yedizdirməyini istəmir.

﴿ لَا نَسْـَٔلُكَ رِزْقًا ۖ نَّحْنُ نَرْزُقُكَ ۗ وَٱلْعَٰقِبَةُ لِلتَّقْوَىٰ ﴾

*“Biz səndən ruzi istəmirik. Biz sənə ruzi veririk və gözəl aqibət isə müttəqilərindir”[1].*

O, səndən yalnız bir şeyi istəyir və istədiyi şeyin xeyri də yenə sənə qayıdır. Səndən istədiyi Ona - heç bir şəriki olmayan, tək Allaha ibadət etməyindir.

﴿ وَمَا خَلَقْتُ ٱلْجِنَّ وَٱلْإِنسَ إِلَّا لِيَعْبُدُونِ ﴿٥٦﴾ مَآ أُرِيدُ مِنْهُم مِّن رِّزْقٍ وَمَآ أُرِيدُ أَن يُطْعِمُونِ ﴿٥٧﴾ إِنَّ ٱللَّهَ هُوَ
ٱلرَّزَّاقُ ذُو ٱلْقُوَّةِ ٱلْمَتِينُ ﴿٥٨﴾ ﴾

*“Mən cinləri və insanları yalnız mənə ibadət etmək üçün yaratdım. Mən onlardan nə ruzi, nə də məni yedizdirmələrini istəmirəm. Həqiqətən Allah bütün məxluqatına ruzi verən, sarsılmaz güc və qüdrət sahibidir”[2].*

Allah səndən qulluğun bütün mənalarında Ona qul olmağını istəyir, Onun Rububiyyətin bütün mənalarında sənin Rəbbin olduğu kimi. Səndən Ona zəlil qul olmaq, Ona boyun əymək, əmrlərini yerinə yetirmək və qadağalarından çəkinmək, Onun verdiyi xəbərləri doğrulamağını istəyir. Çünki sən həqiqətən də Onun nemətlərinin ardı kəsilmədən sənə gəldiyini görürsən. Bəs bu nemətləri nankorluqla qarşılamağa utanmırsanmı?!

İnsanlardan biri sənə yaxşılıq etsə, ona öz günahlarını aşkar etməkdən və onun sənin müxalif əməlini görməsindən utanardın. Bəs Rəbbin necə?

1 “Tahə”,132.
2 “əz-Zariyət”, 56-57-58.

Hansı ki, sənin üzərində olan bütün fəzilətlər Ondandır, bütün pisliklərin səndən dəf edilməsi Onun sənə olan rəhmətindəndir.

﴿ وَمَا بِكُم مِّن نِّعۡمَةٖ فَمِنَ ٱللَّهِۖ ثُمَّ إِذَا مَسَّكُمُ ٱلضُّرُّ فَإِلَيۡهِ تَجۡـَٔرُونَ ﴾

*"Sizə verilən bütün nemətlər Allahdandır. Sonra sizə bir zərər toxunduqda, dua etməklə Ona yalvarırsınız"*[1].

Həqiqətən Allahın özü üçün qullarına vacib etdiyi bu haqq, Allahın asandlaşdırdığı kimsələr üçün asandır. Buna görə də, Allah bu haqqı əda etməkdə heç bir çətinlik, sıxıntı və məşəqqət qoymamışdır.

﴿ وَجَٰهِدُواْ فِي ٱللَّهِ حَقَّ جِهَادِهِۦۚ هُوَ ٱجۡتَبَىٰكُمۡ وَمَا جَعَلَ عَلَيۡكُمۡ فِي ٱلدِّينِ مِنۡ حَرَجٖۚ مِّلَّةَ أَبِيكُمۡ إِبۡرَٰهِيمَۚ هُوَ سَمَّىٰكُمُ ٱلۡمُسۡلِمِينَ مِن قَبۡلُ وَفِي هَٰذَا لِيَكُونَ ٱلرَّسُولُ شَهِيدًا عَلَيۡكُمۡ وَتَكُونُواْ شُهَدَآءَ عَلَى ٱلنَّاسِۚ فَأَقِيمُواْ ٱلصَّلَوٰةَ وَءَاتُواْ ٱلزَّكَوٰةَ وَٱعۡتَصِمُواْ بِٱللَّهِ هُوَ مَوۡلَىٰكُمۡۖ فَنِعۡمَ ٱلۡمَوۡلَىٰ وَنِعۡمَ ٱلنَّصِيرُ ﴾

*"Allah yolunda lazımınca cihad edin. O, sizi seçdi və atanız İbrahimin dinində olduğu kimi, bu dində də sizin üçün heç bir çətinlik yaratmadı. Peyğəmbər sizə, siz də insanlara şahid olasınız deyə Allah həm əvvəl, həm də bu Kitabda sizi müsəlman adlandırdı. Siz də elə isə namaz qılın, zəkat verin və Allahın dininə möhkəm sarılın. O, sizin Himayədarınızdır. O, nə gözəl Himayədar, nə gözəl Yardımçıdır"*[2].

Həqiqətən bu, möhkəm bir etiqad, haqqa iman etmək və səmərə verən saleh əməldir. Bu etiqadın dayağı sevgi və təzimdir. Bu etiqadın səmərəsi isə ixlas və əməl üzərində davamlı olmaqdır. Gün ərzində qılınan namaz ilə Allah xətaları bağışlayır, dərəcələri qaldırır və qəlbləri islah edir. Qul bu namazlarını bacardığı qədər əda edir:

1 "ən-Nəhl", 53.
2 "əl-Həcc", 78.

﴿ فَٱتَّقُواْ ٱللَّهَ مَا ٱسۡتَطَعۡتُمۡ ﴾

*"Allahdan bacardığınız qədər qorxun"*[1].

Peyğəmbər (ona Allahın salavatı və salamı olsun) İmran bin Hüseyn xəstə olduğu zaman ona belə demişdir: *"Namazını ayaq üstə qıl, əgər bacarmasan, oturduğun halda və əgər bunu da bacarmasan, uzandığın halda qıl"*[2].

**Zəkat -** malından cüzi bir hissəsini müsəlman fəqirlərin, miskinlərin, pulu qurtardığı üçün yolda qalanların, borcu olanların və zəkata haqqı çatan digər kimsələrin ehtiyacını ödəmək üçün verilir.

İldə bircə ay oruc tutmaq:

﴿ وَمَن كَانَ مَرِيضًا أَوۡ عَلَىٰ سَفَرٖ فَعِدَّةٞ مِّنۡ أَيَّامٍ أُخَرَۗ ﴾

*"Xəstə və ya səfərdə olanlar isə, başqa günlərdə eyni sayda oruc tutsunlar"*[3].

Bir kimsə daimi xəstəliyinə görə oruc tuta bilmirsə, oruc tutmadığı hər günün əvəzində bir miskin yedizdirməlidir.

Bacaran kimsə ömründə bircə dəfə Allahın evini həcc etməlidir. Bütün bunlar Allahın haqlarının əsaslarıdır. Qalan əməllər isə yalnız ehtiyac olduğu üçün vacib olur. Məsələn, Allah yolunda vuruşmaq, yaxud da hər hansısa bir səbəbdən dolayı məzluma yardım etmək kimi.

**Qulaq as, ey qardaşım!** Bu haqq əməlcə azdır, savabı isə çoxdur. Əgər bu haqqı (Allahın haqqını) yerinə yetirsən, həm dünyada, həm də axirətdə səadətə nail olar, oddan qurtulub Cənnətə daxil olarsan.

---

1 "ət-Təğabun", 16.
2 "Səhih Buxari" 1117-ci hədis.
3 "əl-Bəqərə", 185.

﴿فَمَن زُحۡزِحَ عَنِ ٱلنَّارِ وَأُدۡخِلَ ٱلۡجَنَّةَ فَقَدۡ فَازَۗ وَمَا ٱلۡحَيَوٰةُ ٱلدُّنۡيَآ إِلَّا مَتَٰعُ ٱلۡغُرُورِ﴾

*“Kim oddan uzaqlaşdırılıb Cənnətə daxil edilərsə, o uğur qazanmış olar. Dünya həyatı isə aldadıcı ləzzətdən başqa bir şey deyildir”*[1].

1 “ali-İmran”, 185.

## ﴾ İkinci haqq ﴿

## ALLAHIN ELÇİSİNİN HAQQI

Bu haqq isə bəşəriyyətin haqları içərisində ən əzəmətli haqdır. Heç bir məxluqun haqqı Allahın Elçisinin (ona Allahın salavatı və salamı olsun) haqqından üstün deyildir. Uca Allah belə buyurur:

﴿ إِنَّآ أَرۡسَلۡنَٰكَ شَٰهِدٗا وَمُبَشِّرٗا وَنَذِيرٗا ٨ لِّتُؤۡمِنُواْ بِٱللَّهِ وَرَسُولِهِۦ وَتُعَزِّرُوهُ وَتُوَقِّرُوهُۚ وَتُسَبِّحُوهُ بُكۡرَةٗ وَأَصِيلًا ﴾

*“Həqiqətən Biz səni şahid, müjdə verən və xəbərdarlıq edən kimi göndərdik. Bu, Sizin Allaha və Onun Elçisinə iman gətirməyiniz, ona kömək etməyiniz, onun hörmətini saxlamağınız və gecə-gündüz Allaha tariflər etməyiniz üçündür”*[1].

Buna görə də Peyğəmbərə olan sevgi bütün insanlara olan sevgidən - insanın özünə, övladına və valideyininə olan sevgidən üstün olmalıdır. Allahın Elçisi (ona Allahın salavatı və salamı olsun) belə buyurur: *“Sizdən biriniz məni öz övladından, valideynindən və bütün insanlardan çox sevmədikcə kamil iman etmiş olmaz”*[2].

❀ **Peyğəmbərin (ona Allahın salavatı və salamı olsun) haqlarından;** onun hörmətini saxlamaq, həddi aşmadan və ona hörmətdə qüsura yol vermədən onun layiq olduğu şəkildə təzim etməkdir. O həyatda ikən isə ona olan hörmət, onun şəxsiyyətinə və sünnəsinə olan hörməti ehtiva edir. O vəfat etdikdən sonra olan hörmət isə, onun sünnəsini və sabit olan

---

1 “əl-Fəth”, 8-9.
2 “Səhih Buxari” 15-ci, “Səhih Müslim” 44-cü hədislər.

şəriətini uca tutmaqdır. Bir kimsə səhabələrin Peyğəmbərə olan hörmətini bilərsə, fəzilətli və dəyərli kimsələrin Peyğəmbərin özlərinə vacib olan haqqına münasibətdə necə əməl etdiklərini görər. Qureyş əhli Urva bin Məsudu "Hudeybiyyə" hadisəsində aralarında sülh müqavilsəsi bağlamaq üçün Peyğəmbərin yanına göndərirlər. Urva geri döndükdə onlara belə deyir: *“Mən Kisra, Qeysər və Nəcaşi kimi şahzadələrin yanına daxil oldum, heç bir kimsənin səhabələrinin Muhammədi uca tutduğu kimi uca tutulduğunu görmədim. Onlara bir işi əmr edərdisə, dərhal onu yerinə yetirərdilər, dəstəmaz aldığı zaman onun dəstəmaz suyu üçün bir-birləri ilə yarışardırlar, o danışdığı zaman səslərini aşağı salardılar, ona olan təzimdən gözlərini ona dikib baxmazdılar”*[1]. Onlar Peyğəmbərin (ona Allahın salavatı və salamı olsun) fitrətən gözəl əxlaqı olan, yumşaqlıq və asanlıqla yanaşı Peyğəmbəri (ona Allahın salavatı və salamı olsun) uca tutardılar. Əgər o, (ona Allahın salavatı və salamı olsun) sərt və daş ürəkli olsaydı, onlar onun ətrafından dağılıb gedərdilər.

۞ **Həmçinin Peyğəmbərin (ona Allahın salavatı və salamı olsun) haqlarından;** keçmişdə baş vermiş və gələcəkdə baş verəcək hadisələr barədə verdiyi xəbərləri təsdiq etmək, onun əmrini yerinə yetirmək, onun qadağan etdiklərindən çəkinmək, onun yolunun ən doğru yol, onun şəriətinin isə ən kamil şəriət olduğuna iman gətirmək və məsdərindən asılı olmayaraq onun şəriətinin və nizamının önünə başqa bir şəriəti keçirməmək:

﴿ فَلَا وَرَبِّكَ لَا يُؤْمِنُونَ حَتَّىٰ يُحَكِّمُوكَ فِيمَا شَجَرَ بَيْنَهُمْ ثُمَّ لَا يَجِدُوا۟ فِىٓ أَنفُسِهِمْ حَرَجًا مِّمَّا قَضَيْتَ وَيُسَلِّمُوا۟ تَسْلِيمًا ﴾

1 “Səhih Buxari” 2581-ci hədis.

*"Xeyr, Sənin Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən çəkişmələrdə səni hakim etməyincə, sonra da verdiyin hökmlərə özlərində bir sıxıntı duymadan tam təslim olmadıqca iman etmiş olmazlar"*[1].

﴿ قُلۡ إِن كُنتُمۡ تُحِبُّونَ ٱللَّهَ فَٱتَّبِعُونِي يُحۡبِبۡكُمُ ٱللَّهُ وَيَغۡفِرۡ لَكُمۡ ذُنُوبَكُمۡۚ وَٱللَّهُ غَفُورٞ رَّحِيمٞ ﴾

*"De: Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah Bağışlayandır, Rəhimlidir"*[2].

**Həmçinin Peyğəmbərin (ona Allahın salavatı və salamı olsun) haqlarından;** insan vəziyyətə müvafiq olaraq, bacardığı qədər onun şəriətini müdafiə etməlidir. Əgər düşmən şübhə ilə hücuma keçərsə, o zaman bu şübhələri elmlə dəf etmək və onun fəsad olmasını bəyan etmək, əgər düşmən silahla hücuma keçərsə, onun mislində də müdafiə etmək lazımdır.

Peyğəmbərin (ona Allahın salavatı və salamı olsun) şəriətinə və ya onun möhtərəm şəxsiyyətinə hücum edildikdə, onu müdaifə etməyi bacardığı halda sakit durmaq heç bir möminə yaraşmaz.

1 "ən-Nisə", 65.
2 "ali-İmran", 31.

## « Üçüncü haqq »

## VALİDEYNLƏRİN HAQQI

Heç kim valideynlərin övladları üzərində olan haqqını inkar edə bilməz. Ata və ana övladın həyatda var olma səbəbləridir. Buna görə də valideynin övladı üzərində haqqı böyükdür: valideyni onu uşaq ikən tərbiyələndirib, onun rahatlığı üçün yorğunluğa qatlanıb, onun yatması üçün özləri oyaq qalıblar. Anan səni bətnində daşıyıb. Sən ananın qidalanması və sağlamlığı hesabına doqquz ay onun bətnində yaşamısan. Necə ki, Allah Öz sözü ilə buna işarə edir:

﴿ حَمَلَتۡهُ أُمُّهُۥ وَهۡنًا عَلَىٰ وَهۡنٖ ﴾

*"Anası onu bətnində gündən-günə zəifləməsinə baxmayaraq daşımışdı"*[1].

Sonra isə anan 2 il boyunca çətinlik, məşəqqət və yorğunluqla sənə süd əmizdirir. Həmçinin atan uşaq vaxtından sənin yaşamağın və güclü olmağın üçün çalışır, ta ki, sən özün öz ayaqların üstündə dura bilənə qədər. Sən özünə heç bir zərər və fayda verə bilmədiyin vaxt atan sənin tərbiyən və doğru yola yönəlməyin üçün çalışır. Buna görə də Allah Özünə şükür olaraq övladın öz valideynlərinə yaxşılıq etməsini əmr edərək buyurmuşdur:

﴿ وَوَصَّيۡنَا ٱلۡإِنسَٰنَ بِوَٰلِدَيۡهِ حَمَلَتۡهُ أُمُّهُۥ وَهۡنًا عَلَىٰ وَهۡنٖ وَفِصَٰلُهُۥ فِي عَامَيۡنِ أَنِ ٱشۡكُرۡ لِي وَلِوَٰلِدَيۡكَ إِلَيَّ ٱلۡمَصِيرُ ﴾

1 "Loğman", 14.

*"Biz insana ata-anasının qayğısına qalmağı əmr etdik. Anası onu bətnində gündən-günə zəifləməsinə baxmayaraq daşımışdır. Onun süddən kəsilməsi isə iki il ərzində olur. Mənə və validyenlərinə şükür et, axır dönüş Mənədir"*[1].

Allah belə buyurur:

﴿ وَقَضَىٰ رَبُّكَ أَلَّا تَعْبُدُوٓا۟ إِلَّآ إِيَّاهُ وَبِٱلْوَٰلِدَيْنِ إِحْسَٰنًا ۚ إِمَّا يَبْلُغَنَّ عِندَكَ ٱلْكِبَرَ أَحَدُهُمَآ أَوْ كِلَاهُمَا فَلَا
تَقُل لَّهُمَآ أُفٍّ وَلَا تَنْهَرْهُمَا وَقُل لَّهُمَا قَوْلًا كَرِيمًا ﴿٢٣﴾ وَٱخْفِضْ لَهُمَا جَنَاحَ ٱلذُّلِّ مِنَ ٱلرَّحْمَةِ وَقُل رَّبِّ
ٱرْحَمْهُمَا كَمَا رَبَّيَانِى صَغِيرًا ﴿٢٤﴾ ﴾

*"Rəbbin yalnız Ona ibadət etməyi və ata-ana ilə yaxşı davranmağı əmr etmişdir. Əgər onların biri və ya hər ikisi sənin yanında qocalıq yaşına çatarsa, onlara "uf" belə demə, üstlərinə qışqırma və onlara xoş söz söylə. Onların hə ikisinə rəhm edərək təvazökarlıq qanadının altına al və de ki, Ey Rəbbim! Onlar məni körpəliyimdən tərbiyə edib böyütdükləri kimi, Sən də onlara rəhm et!"*[2].

Valideynlərin sənin üzərində olan haqqıdır ki, onlarla gözəl rəftar edəsən: onlara gözəl söz söyləyəsən və ya malın və canınla onlara yaxşılıq edəsən, Allaha qarşı günah olmayan və sənə zərər olmayan bir işi əmr etdikdə onların əmrini yerinə yetirəsən, onlara yumşaq söz deyəsən, üzlərinə təbəssüm edəsən, layiqli şəkildə onların xidmətində durasan, onlar yaşlandıqda, xəstələndikdə və zəiflədikdə sıxılmayasan. Onlara xidmət etmək sənə ağır gəlməməlidir, çünki əgər Allah sənin qədərində yazıbsa, onlar valideyn olduğu kimi, bir gün sən də onlar kimi valideyn olacaqsan, valideynin sənin yanında yaşlandığı kimi, sən də övladlarının yanında yaşlanacaqsan. Onların bu gün sənin yaxşılığına

1 "Loğman", 14.
2 "əl-İsra", 23-24.

ehtiyacı olduğu kimi, sənin də öz övladlarının sənə yaxşılıq etməsinə ehtiyacın olacaq. Əgər sən valideynlərinə yaxşılıq etmisənsə, bunun qarşılığında mükafat və çoxlu savab (qazanacağın haqda) müjdələr olsun sənə! Kim valideynləri ilə yaxşı rəftar edərsə, övladları da onunla yaxşı rəftar edər. Kim də valideynlərinin üzünə ağ olarsa, övladları da onun üzünə ağ olar: mükafat əməlin növündəndir, necə etmisənsə, o cür də əvəzini görəcəksən. Allah valideynlərin haqqını uca və böyük bir haqq etmişdir! Allah onların haqqını Özünün və Peyğəmbərinin (ona Allahın salavatı və salamı olsun) haqqından sonra qeyd edərək belə buyurur:

﴿ وَٱعۡبُدُواْ ٱللَّهَ وَلَا تُشۡرِكُواْ بِهِۦ شَيۡـٔٗاۖ وَبِٱلۡوَٰلِدَيۡنِ إِحۡسَٰنٗا ﴾

*“Allaha ibadət edin və Ona heç bir şeyi şərik qoşmayın və valideynlərlə yaxşı davranın”[1].*

Başqa bir ayədə isə Uca Allah belə buyurur:

﴿ أَنِ ٱشۡكُرۡ لِي وَلِوَٰلِدَيۡكَ إِلَيَّ ٱلۡمَصِيرُ ﴾

*“Mənə və valideynlərinə şükür et”[2].*

İbn Məsudun (Allah ondan razı olsun) rəvayət etdiyi hədisdə Peyğəmbər (ona Allahın salavatı və salamı olsun) valideynlərə yaxşılıq etməyi Allah yolunda vuruşmaqdan üstün tutur.

İbn Məsud (Allah ondan razı olsun) *“Mən, Ey, Allahın Elçisi! Allaha ən sevimli olan əməl hansıdır?”* söylədim - deyir.”

O, (ona Allahın salavatı və salamı olsun) *“Vaxtında qılınan namaz”* - dedi.

Mən *“Sonra hansı əməldir?”* - dedim.

---

1 “ən-Nisə”, 36.
2 “Loğman”, 14.

O, (ona Allahın salavatı və salamı olsun) *"Valideynlərə yaxşılıq etmək"* - dedi.

Mən *"Sonra hansı əməldir?"* - dedim.

O, (ona Allahın salavatı və salamı ona olsun) *"Allah yolunda vuruşmaq"* - dedi[1].

Bu, valideynlərin haqlarının nə qədər mühüm olmasına dəlalət edir. İnsanların çoxu bu haqları zay etmiş, valideynlərinin üzünə ağ olmuş və onlarla əlaqəni kəsmişlər. Bəzi insanların nə ata, nə də ana haqqı bilmədiyinin şahidi olarsan. Bəzən də övlad onları təhqir edir, alçaldır və onlara yuxarıdan aşağı baxır. Bu kimsə etdiyi əməlin cəzasını ya bu dünyada, yaxud da axirətdə alacaq.

1 "Səhih Buxari" 527-ci və "Səhih Müslim" 85-ci hədislər.

## ﴾ Dördüncü haqq ﴿

## ÖVLADLARIN HAQQI

"Övlad" sözü həm oğlan, həm də qız uşaqlarına şamil olunur. Övladların haqqı olduqca çoxdur, bunlardan ən mühümü isə tərbiyədir. Bu haqq övladların uca bir məqama çatması üçün onların nəfsində dini və əxlaqı bərqərar etməkdir. Uca Allah belə buyurur:

﴿ يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ قُوٓاْ أَنفُسَكُمۡ وَأَهۡلِيكُمۡ نَارٗا وَقُودُهَا ٱلنَّاسُ وَٱلۡحِجَارَةُ ﴾

*“Ey iman gətirənlər! Özünüzü və ailənizi yanacağı insanlar və daşlar olan oddan qoruyun”*[1].

Peyğəmbər (ona Allahın salavatı və salamı olsun) belə söyləmişdir: *“Hər biriniz idarə edicisiniz və hər biriniz üzərində rəhbər olduğunuz barədə soruşulacaqsınız, kişi öz ailəsinin idarə edicisidir və o, üzərində rəhbər olduğu ailəsi barədə (Qiyamət günü) soruşulacaq”*[2].

Övladlar valideynlərin üzərində bir əmanətdir və valideynlər Qiyamət günü onlar barəsində haqq-hesaba çəkiləcəklər. Valideynlər övladlarına dini və əxlaqi tərbiyə verməklə, üzərlərində olan idarəçilik vacibini yerini yetirmiş olurlar. Beləliklə övladlar islah olur və həm bu dünyada, həm də axirətdə valideynlərin göz bəbəyinə çevrilir. Uca Allah belə buyurur:

﴿ وَٱلَّذِينَ ءَامَنُواْ وَٱتَّبَعَتۡهُمۡ ذُرِّيَّتُهُم بِإِيمَٰنٍ أَلۡحَقۡنَا بِهِمۡ ذُرِّيَّتَهُمۡ وَمَآ أَلَتۡنَٰهُم مِّنۡ عَمَلِهِم مِّن شَيۡءٖۚ كُلُّ ٱمۡرِيِٕۭ بِمَا كَسَبَ رَهِينٞ ﴾

1 “ət-Təhrim”, 6.
2 “Səhih Buxari” 893-cü və “Səhih Müslim” 1827-ci hədislər.

*"Möminlərin imanda onların arxasınca gedən nəsillərini də özlərinə qovuşdurarıq. Onların əməllərindən heç bir şey əskiltməyəcəyik. Hər kəs qazandığının girovudur"*[1].

Peyğəmbər (ona Allahın salavatı və salamı ona olsun) belə demişdir: *"Adəm övladı vəfat etdikdə onun üç əməlindən başqa bütün əməllərinin savabı kəsilər; (bu əməllər) axar (davamlı) sədəqə, özündən sonra insanların faydalandığı elm və özü üçün dua edən saleh övladdır"*[2].

Bu, övladı gözəl ədəbləndirməyin səmərəsidir, çünki, valideyn övladını gözəl tərbiyələndirir ki, onlar öldükdən sonra da onlara fayda versin.

Artıq valideynlərin bir çoxu bu haqqı puç edib, övladlarını zay edib, (bu haqqı) unudublar. Sanki onların övladları üzərində heç bir məsuliyyəti yoxdur. Övladlarından hara getdikləri və nə vaxt qayıdacaqları, dostlarının və yoldaşlarının kim olduğu barədə soruşmurlar, onları xeyirə yönəldib şərdən çəkindirmirlər. Daha da təəccüblüsü odur ki, bu cür insanlar öz mallarını qorumağa, artırmağa və mallarının mənfəəti üçün gecələri oyaq qalmağa şiddətli dərəcədə harisdirlər. Üstəlik əksər hallarda mallarını başqalarının xeyri üçün artırır və qoruyurlar. Amma övladlarının isə sanki onlarla heç bir əlaqəsi yoxdur. Həqiqətdə isə övladlarını qorumaları onlar üçün həm bu dünyada, həm də axirətdə daha faydalı və daha mühümdür. Ataya öz övladını yedizdirib-içizdirməsi, geyindirməsi vacib olduğu kimi, övladın qəlbini iman və elm ilə qidalandırması və ruhunu təqva libası ilə örtməsi də vacibdir - elə ən xeyirli olan da məhz budur.

۞ **Həmçinin övladların haqlarından;** israf və əksikliyə yol vermədən onlar üçün yaxşılıqla xərcləməkdir. Çünki bu, atanın üzərinə vacib olan övlad haqlarındandır və Allahın ona əta etdiyi nemətə şükür etməkdir. Həyatda ikən onlara malından xərcləmir və xəsislik edir, onlar üçün mal-dövlət toplayır, halbuki öldükdən sonra onlar özləri bu malı əllərinə

1 "ət-Tur", 21.
2 "Səhih Müslim" 1631-ci hədis.

keçirəcəklər. Hətta övladlarına yaxşı işlər üçün xərcləməsi vacib olan xərclərdə xəsislik edərsə, övladlara icazəlidir ki, onun malından özlərinə kifayət edəcək qədər götürsünlər. Necə ki, bu barədə Peyğəmbər (ona Allahın salavatı və salamı olsun) Hind bint Utbəyə fətva vermişdir.

**Həmçinin övladların haqlarından;** bəxş etdikdə və hədiyyə verdikdə onlar arasında fərq qoymamaq, birini digərindən üstün görməmək, övladın birinə bir şey verib digərini bundan məhrum etməməkdir. Çünki bu zülmdür, Allah isə zülm edənləri sevməz. Belə etmək, bir şeyi verməkdən məhrum etdiyin övladın səndən uzaqlaşmasına və övladlar arsında düşmənçilik yaranmasına gətirib çıxarır. Hətta ola bilər ki, düşmənçilik məhrum edilən övladlarla ata arasında da baş versin. Bəzi valideynlər özlərinə qarşı xoş rəftar etməsinə və yaxşılıqlarına görə bir övladı digərindən üstün tuturlar. Ata özünə yaxşılıq etdiyinə görə həmin övladına hədiyyə, bəxşiş verərək onu digər övladlarından üstün tutur. Lakin bu övladın digərlərindən seçilməsinin icazəli olması demək deyil. Valideynə yaxşılıq etdiyinə görə övlada əvəzini vermək və övladlar arasında fərq qoymaq doğru deyil. Çünki onun öz valideyninə etdiyi yaxşılığın və gözəl rəftarının mükafatı Allah qatındadır. Övladın yaxşılıq etdiyinə görə ona əta etmək, onun öz etdiyi yaxşılıqla fəxr etməsinə və özünü üstün görməsinə, digər övladların uzaqlaşmasına və valideynlərinin üzünə ağ olmaqda davamlı olmasına gətirib çıxarır. Həmçinin hardan bilə bilərik, axı vəziyyət dəyişə bilər?! Bu gün valideyninə yaxşılıq edən sabah onların üzünə ağ ola, bu gün valideynin üzünə ağ olan isə sabah valideyninə yaxşılıq edə bilər. Çünki qəlblər Allahın əlindədir və O, qəlbləri istədiyi kimi çevirir. Buxari və Müslim "Səhih" əsərlərində Numən bin Bəşirin atası (Allah ondan və atasından razı olsun) Bəşir ibn Sad oğluna əta edir və bu barədə Peyğəmbərə (ona Allahın salavatı və salamı olsun) xəbər verdikdə O, (ona Allahın salavatı və salamı olsun) belə deyir: *"Övladlarının hər birinə bunu bəxş etmisənmi?"*

O “Xeyr” - dedi,

Peyğəmbər (ona Allahın salavatı və salamı olsun) *“Onu geri qaytar”* - dedi[1]. Başqa bir rəvayətdə isə Peyğəmbər (ona Allahın salavatı və salamı olsun) belə demişdir: *“Allahdan qorxun və övladlarınız arasında ədalətli olun”.* Yenə başqa bir ləfzdə belə demişdir: *“Mən, mənim yolumdan olmayan bir şeyə şahidlikmi edim? Şübhəsiz, Mən zülmə şahidlik etmərəm”*[2]. Allahın Elçisi övladların birini digərindən üstün tutmağı zülm adlandırdı, zülm isə haram əməldir.

Lakin, əgər övladlarının bəzisinə ehtiyac olan bir şeyi verərsə və digərinin isə buna ehtiyacı olmazsa, bu halda ehtiyacı olan övladı fərqləndirməkdə bir qəbahət yoxdur. Misal olaraq, övladlarından birinin məktəb ləvazimatlarına, dərmana və yaxud da evlənməyə ehtiyacı varsa, çünki bu fərqləndirmə ehtiyacdan dolayı edilir, yardım etmək kimidir.

Ata övladı barədə ona vacib olan tərbiyəni və yaşayış xərclərini təmin edərsə, bu zaman o, övladının ona yaxşılıq etməsi və haqqının qorunması müvəffəqiyyətinə layiqdir. Lakin ata öz üzərində vacib olan haqqı zay edərsə, övladının onun haqqını inkar etməsinə və onun üzünə ağ olması ilə cəzalanmasına layiqdir. Necə rəftar etmisənsə, əvəzini də o cür görəcəksən.

---

1 “Səhih Buxari” 2587-ci və “Səhih Müslim” 1623-cü hədislər.
2 “Səhih Buxari” 2650-ci və “Səhih Müslim” 1623-cü hədsilər.

## « Beşinci haqq »

# QOHUMLARIN HAQQI

Sənə birbaşa qohumluq əlaqələri ilə birləşən; qardaş, əmi, dayı, onların övladları və bu əlaqəyə daxil olan digərlərinin qohumluq əlaqələrindən sənə yaxınlıqları miqdarında haqları var. Uca Allah belə buyurur:

﴿ وَءَاتِ ذَا ٱلْقُرْبَىٰ حَقَّهُۥ وَٱلْمِسْكِينَ وَٱبْنَ ٱلسَّبِيلِ وَلَا تُبَذِّرْ تَبْذِيرًا ﴾

*“Qohum-əqrəbaya da, haqqını ver”*[1].

Başqa ayədə isə belə buyurur:

﴿ وَٱعْبُدُوا۟ ٱللَّهَ وَلَا تُشْرِكُوا۟ بِهِۦ شَيْـًٔا ۖ وَبِٱلْوَٰلِدَيْنِ إِحْسَٰنًا وَبِذِى ٱلْقُرْبَىٰ ﴾

*“Allaha ibadət edin və ona heç bir şeyi şərik qoşmayın. Valideynlərə, qohum-əqrəbaya ... yaxşılıq edin”*[2].

Hər bir kimsəyə vacibdir ki, qohum-əqrəbaları ilə əlaqəni birləşdirsin, qohumluq əlaqələrinin və ehtiyacın tələb etdiyi miqdarda istər canı, istərsə də malı ilə onlara fayda versin və yardım etsin. Bu həm şəriətin, həm ağlın, həm də fitrətin tələbidir.

Qohumluq əlaqələrini birləşdirməyə həvəsləndirən və rəğbətləndirən çoxlu sayda hədislər var. Buxari və Müslim “Səhih” hədis toplularında Əbu Hureyradan (Allah ondan razı olsun) Peyğəmbərin (ona Allahın salavatı və salamı olsun) belə dediyi rəvayət olunur: *“Həqiqətən Allah bəşəriyyəti yaradıb bitirdikdə qohumluq əlaqəsi ayağa qalxdı və belə*

---

1 “əl-İsra”, 26.
2 “ən-Nisa”, 36.

*dedi: “Bu, qohumluq əlaqəsini kəsən kimsədən, Sənə sığınan kimsənin məqamıdır”.*

Uca Allah belə buyurdu: *“Bəli, razısanmı ki, səni (yəni qohumluq əlaqələrini) birləşdirən ilə, mən də (əlaqəni) birləşdirim və səni kəsən ilə mən də (əlaqəni) kəsim?”*

Qohumluq əlaqəsi *“Əlbəttə”* - dedi.

Uca Allah belə buyurdu: *“Bu, sənindir”.*

Sonra Allahın Elçisi (ona Allahın salavatı və salamı olsun) belə dedi: *“Əgər istəyirsinizsə, bu ayəni oxuyun:*

﴿ فَهَلْ عَسَيْتُمْ إِن تَوَلَّيْتُمْ أَن تُفْسِدُوا۟ فِى ٱلْأَرْضِ وَتُقَطِّعُوٓا۟ أَرْحَامَكُمْ ۝٢٢ أُو۟لَٰٓئِكَ ٱلَّذِينَ لَعَنَهُمُ ٱللَّهُ
فَأَصَمَّهُمْ وَأَعْمَىٰٓ أَبْصَٰرَهُمْ ۝٢٣ ﴾

*“Əgər üz çevirsəniz, ola bilsin ki, yer üzündə fitnə-fəsad törədəsiniz və qohumluq əlaqələrini kəsəsiniz. Onlar Allahın lənət etdiyi, qulaqlarını kar və gözlərini kor etdiyi kimsələrdir”*[1].

Peyğəmbər (ona Allahın salavatı və salamı ona olsun) belə demişdir: *“Kim Allaha və Axirət gününə iman etmişdirsə, qohumluq əlaqələrini birləşdirsin”*[2].

İnsanların əksəriyyəti bu haqqı zay edir və ya ifrata varırlar. Onlardan eləsini görərsən ki, nə mal-dövlət, nə vəzifəsi, nə də əxlaqı ilə qohumluq əlaqələrini birləşdirən kimsə kimi tanınmır. Günlər, aylar keçir, lakin o nə qohumlarını görmür, nə onları ziyarət etmir, nə onlara hədiyyə verərək sevgilərini qazanmır, nə də ehtiyacları olduğu zaman onlara kömək etmir. Əksinə, sözlə və ya əməllə və ya hər ikisi ilə onlara pislik edir, uzaq olanla əlaqəni birləşdirir, yaxın olanla isə əlaqəni kəsir.

İnsanlardan elələri də var ki, qohumları onunla əlaqəni birləşdirdikdə, o da əlaqəni birləşdirir, qohumları əlaqəni kəssə, o da əlaqəni kəsir.

1 “Muhamməd”, 22-23. “Səhih Buxari” 5987-ci və “Səhih Müslim” 2554-cü hədislər.
2 “Səhih Buxari” 6138-ci hədis.

Həqiqətdə bu kimsə qohumluq əlaqələrini birləşdirən kimsə deyil, o sadəcə yaxşılığa onun mislində cavab verir. Bu isə həm qohumlar, həm də başqalarına münasibətdə edilə bilir. Yaxşılığa yaxşılıqla cavab vermək yalnız qohuma qarşı olmur. Həqiqi qohumluq əlaqələrini birləşdirən kimsə o kimsədir ki, qohumları onunla əlaqəni birləşdirsə də, birləşdirməsə də, buna məhəl qoymaz və qohumluq əlaqələrini Allah üçün birləşdirər. Necə ki, Buxari "Səhih" hədis toplusunda Abdullah bin Amr bin əl-As (Allah ondan razı olsun) Peyğəmbərin (ona Allahın salavatı və salamı ona olsun) belə dediyini rəvayət edir: *"Qohumluq əlaqələrini birləşdirən yalnız ona yaxşılıq edildiyi zaman birləşdirən kimsə deyil. Qohumluq əlaqələri kəsildiyi zaman onu birləşdirən kimsə həqiqi qohumluq əlaqəsini qoruyan kimsədir"*[1].

Bir kişi belə dedi: "Ey Allahın Elçisi, mənim qohumlarım var, mən onlarla əlaqəni birləşdirirəm,onlar isə məndən kəsirlər, mən onlara yaxşılıq edirəm, onlar isə mənə pislik edirlər, mən onlara səbr edirəm, onlar isə mənə çirkin sözlər deyirlər. Peyğəmbər (ona Allahın salavatı və salamı ona olsun) belə dedi: *"Əgər sən dediyin kimidirsə, sən belə etməklə sanki onlara qaynar kömür yedizdirirsən. Nə qədər ki, sən bu cür olmağa davam edəcəksən, sənin yanında daim Allah tərəfindən bir yardımçı (mələk) olacaq"*[2].

Qohumluq əlaqələrini birləşdirən kimsə üçün kifayət edər ki, Allah o kimsə ilə həm bu dünyada, həm də axirətdə əlaqəni birləşdirər, Rəhməti ilə ona yardım edər, onun işlərini asanlaşdırar və ona sıxıntılardan çıxış yolu göstərər. Çünki qohumluq əlaqəsini birləşdirməklə ailələrin bir-birinə yaxın olması, bir-birlərini sevmələrinə, bir-birlərinə qarşı xeyirxah olmalarına, çətin vaxtlarda bir-birilərinə yardım etmələrinə, aralarında sevinc və fərəh hissinin hasil olmasına səbəb olur. Bu, məlum bir məsələdir və təcrübə də bunu təsdiqləyir. Qohumluq əlaqələri kəsildikdə

1 "Səhih Buxari" 5991-ci hədis.
2 "Səhih Müslim" 2558-ci hədis.

isə sadaladığımız bütün bu səmərələr və faydalar hasil olmaz və bununla da uzaqlaşma üz verər.

## ﴾ Altıncı haqq ﴿

# ƏR - ARVAD HAQLARI

Evliliyin mühüm təsirləri və böyük tələbləri var. Evlilik ər ilə arvad arasında bağlantıdır. Hər ikisinə gərəkən isə - istər fiziki haqlar olsun, istər ictimai, istərsə də mal-mülk haqları olsun – birinin digərinin haqqını qorumasıdır.

Hər ikisinə vacib olan digəri ilə gözəl həyat keçirməsi, üzərində vacib olan haqqı asanlıq və ehtiramla, heç bir ikrah hissi duymadan və gecikdirmədən yerinə yetirməsidir. Uca Allah belə buyurmuşdur:

﴿ وَعَاشِرُوهُنَّ بِٱلۡمَعۡرُوفِۚ ﴾

*“Onlarla xoş rəftar edin”*[1].

Başqa bir ayədə isə Uca Allah belə deyir:

﴿ وَلَهُنَّ مِثۡلُ ٱلَّذِي عَلَيۡهِنَّ بِٱلۡمَعۡرُوفِۚ وَلِلرِّجَالِ عَلَيۡهِنَّ دَرَجَةٞۗ ﴾

*“Kişilərin qadınlar üzərində müvafiq haqları olduğu kimi, onların da kişilər üzərində haqları var. Kişilərin onlar üzərində olan haqları isə bir dərəcə üstündür”*[2].

Qadına vacibdir ki, üzərinə vacib olan ər haqqını ödəsin. Ər və arvad üzərlərində olan haqqı lazımınca yerinə yetirərsə, həyatları səadət içərisində keçər, evlilik həyatları davamlı olar. Yox əgər əksinə olarsa,

1 ən-Nisa, 19.
2 əl-Bəqərə, 228

aralarında mübahisə və ayrılıq baş verər, həyatları sıxıntılı və dərdli keçər.

Qadınların halına diqqət yetirilməsi barədə tövsiyyə xarakterli bir çox hədislər varid olmuşdur. Həqiqətən də dünyada mükəmməl insan yoxdur. Allahın Elçisi (ona Allahın salavatı və salamı olsun) buyurmuşdur: *“Qadınlara xeyiri tövsiyyə edin. Həqiqətən qadın qabırğadan yaradılmışdır. Qabırğanı əymək istəsə, bacarmaz, düzəltmək istəsə qabırğanı sındırar və başlı-başına buraxsa, əyri qalmaqda davam edər. Qadınlara tövsiyə edin”*[1].

Başqa bir rəvayətdə isə belə buyurur: *“Həqiqətən qadın qabırğadan yaradılıb, sənin razı qaldığın kimi bir yol üzərində doğru olmaz. Əgər ondan zövq almaq istəsən, zövq alarsan. Onda əyrilik var, onun əyriliyini düzəltmək istəsən, onu sındırarsan, sınması isə, onu boşamaqdır”* [2].

Daha bir rəvayətdə Peyğəmbər (ona Allahın salavatı və salamı olsun) belə demişdir: *“Mömin kişi mömin qadına qəzəblənməsin, əgər onun bir əməlini (əxlaqını) bəyənməzsə, onun digər əməlindən razı qalar”*[3]. Bu hədislərdə Peyğəmbər (ona Allahın salavatı və salamı olsun) ümmətinə kişinin qadınla necə müamilə etməsinin yolunu göstərir. Kişiyə gərəkən qadın barədə asan olanı götürməsidir, çünki kamil olmaması qadının yaradılışına xas təbiətidir. Onda əyrilik olması labüddür. Kişinin qadınla həyatdan zövq alması yalnız onun yaradıldığı təbiəti üzərində mümkündür. Həmçinin bu hədislərin bizə öyrətdiyi odur ki, kişinin üzərinə düşən qadının yaxşı və pis əməllərini müqayisə etməli, onun bir adətini və ya əməlini bəyənməzsə, onun razı qaldığı adətini və ya əməlini yanaşı tutmalı, ona sadəcə qəzəb və nifrət gözü ilə baxmamalıdır.

Həqiqətən əksər ərlər qadınlarının kamil formada olmasını istəyirlər, bu isə mümkünsüzdür. Buna görə bədbəxtçiliyə düçar olur və zövcələri

1 “Səhih Buxari” 3331-ci və “Səhih Müslim” 1468-ci hədislər.
2 “Səhih Müslim” 1468-ci hədis.
3 “Səhih Müslim” 1469-cu hədis.

ilə həyatdan zövq ala bilmirlər. Bu hətta boşanma ilə də nəticələnə bilər. Necə ki, Peyğəmbər (ona Allahın salavatı və salamı ona olsun) demişdir: *"Əgər qabırğanın əyriliyini düzəltmək istəsən, onu sındırarsan, sınması isə boşanmaqdır"*[1]. Ərə gərəkən isə, qadının etdiyi əməlin din və onun şərəfi ilə əlaqəsi yoxdursa, görməməzlikdən gəlməsi və yüngül davranmasıdır.

۞ **Qadının əri üzərində olan haqlarından;** kişinin üzərinə qadının nəfəqəsini təmin etmək üçün xərcləməsi vacib olan, yeməyi, içməyi, geyimi, yaşamaq üçün yeri və digər buna bənzər haqları yerinə yetirməsidir. Uca Allahın bu ayəsinə görə:

﴿وَعَلَى ٱلۡمَوۡلُودِ لَهُۥ رِزۡقُهُنَّ وَكِسۡوَتُهُنَّ بِٱلۡمَعۡرُوفِۚ ﴾

*"Anaların yeməyi və geyimi gücü yetdiyi qədər uşağın atasının üzərinə düşür"*[2].

Peyğəmbər belə demişdir: *"Qadınların yeməyi və geyimi gücünüz yetdiyi qədər sizin üzərinizə vacibdir"*[3].

Digər bir hədisdə isə, bir adam belə dedi: *"Bizdən birimizin üzərində həyat yoldaşının haqqı nədir?"*.

Allahın Elçisi (ona Allahın salavatı və salamı olsun) belə dedi: *"Yediyin zaman onu yedizdirməyin, geyindiyin zaman onu geyindirməyin, üzə vurmamağın, ona "çirkinsən" deməməyin və ondan uzaq durmağı yalnız evinin içində etməyindir"*[4].

1 "Səhih Müslim" 1468-ci hədis.
2 "əl-Bəqərə", 233.
3 "Səhih Müslim" 2137-ci hədis.
4 "Sünən əbu Dəvud" 2142-ci və "Sünən ibn Macə 1850-ci hədislər. Hədis səhihdir. Bax: "Səhih Sünən əbu Dəvud", 2142-ci hədis.

**Həmçinin qadının əri üzərində olan haqlarından;** kişinin iki həyat yoldaşı varsa, onların arasında onların nəfəqəsini təmin etməkdə, yaşayış yeri ilə təmin etməkdə və yanında gecələməkdə ədalətli olmaqdır. Ədalətli olunması mümkün olan hər bir işdə onlar arasında ədalətli davranmalıdır. Onlardan birinə meyl edib digərini tərk etmək böyük günahlardandır. Peyğəmbər (ona Allahın salavatı və salamı olsun) belə söyləmişdir: *“Kimin iki həyat yoldaşı olar və onlardan birinə meyl edib digərini tərk edərsə, Qiyamət günü iki tərəfindən biri iflic olduğu halda gələr”*[1]. Amma ürəkdə sevgi və nəfsin rahatlıq tapması kimi ədalətin qorunması mümkün olmayan işlərdə ona bir günah yoxdur, çünki bu, onun ixtiyarında deyil. Uca Allah belə deyir:

﴿ وَلَن تَسْتَطِيعُوٓا۟ أَن تَعْدِلُوا۟ بَيْنَ ٱلنِّسَآءِ وَلَوْ حَرَصْتُمْ ۖ فَلَا تَمِيلُوا۟ كُلَّ ٱلْمَيْلِ فَتَذَرُوهَا كَٱلْمُعَلَّقَةِ ۚ وَإِن
تُصْلِحُوا۟ وَتَتَّقُوا۟ فَإِنَّ ٱللَّهَ كَانَ غَفُورًا رَّحِيمًا﴾

*“Siz nə qədər istəsəniz də, arvadlar arasında ədalətlə davrana bilməzsiniz”*[2]. Allahın Elçisi (ona Allahın salavatı və salamı olsun) həyat yoldaşları arasında günlərini eyni qədər ayırar və ədalətli davranardı. O, (ona Allahın salavatı və salamı olsun) belə deyərdi: *“Allahım, bu mənim gücümün çatdığı bir bölgüdür, Sənin qadir olub (sevgi və qəlbin meyl etməsi) mənim gücümün çatmadığı bir şeyə görə məni qınama”*[3].

Lakin, ər digər arvadının razılığı ilə hər hansı birinin yanında gecələməyi digərindən üstün tutarsa, bunda bir qəbahət yoxdur. Necə ki, Səvdə öz gününü Aişəyə verdikdə, o, Aişənin öz haqqı və Səvdənin haqqı olan hər iki günü Aişə üçün ayırmışdır. Allahın Elçisi (ona Allahın

---

1 “Sünən əbu Dəvud” 2133-cü, “Sünən ət-Tirmizi” 1141-ci və “Sünən ibn Macə, 1969-cu hədislər. Hədis səhihdir. Bax: “Səhih Sünən əbu Dəvud”, 2133-ci hədis.
2 “Ən-Nisa”, 129
3 “Sünən əbu Dəvud” 2134-cü, “Sünən ət-Tirmizi” 1140-cı və “Sünən ibn Macə” 1971-ci hədislər. Hədis zəifdir. Bax: “Daif əbu Dəvud”, 370-ci hədis.

salavatı və salamı olsun) vəfatı ilə nəticələnən xəstəlikdən əziyyət çəkdiyi halda belə soruşardı: *"Sabah mən kimin yanındayam?", "Sabah mən kimin yanındayam?"* Arvadları ona istədiyi yerdə qalmağa izn verdilər və O, (ona Allahın salavatı və salamı olsun) vəfat edənə qədər Aişənin evində qaldı[1].

Ərin arvadı üzərində olan haqlar isə Uca Allahın bu ayəsinə görə arvadın əri üzərində olan haqlardan daha böyükdür:

﴿ وَلَهُنَّ مِثْلُ ٱلَّذِى عَلَيْهِنَّ بِٱلْمَعْرُوفِ ۚ وَلِلرِّجَالِ عَلَيْهِنَّ دَرَجَةٌ ۗ ﴾

*"Kişilərin qadınlar üzərində haqları olduğu kimi, onların da kişilər üzərində haqları var. Kişilərin onlar üzərində olan haqları bir dərəcə üstündür"[2].*

Kişilər qadınlara onlara faydası olan işləri yerinə yetirməsində, onları ədəbləndirməkdə və onlara doğru istiqamət verməkdə onların üzərində himayəçidirlər. Necə ki, uca Allah ayədə belə buyurur:

﴿ ٱلرِّجَالُ قَوَّٰمُونَ عَلَى ٱلنِّسَآءِ بِمَا فَضَّلَ ٱللَّهُ بَعْضَهُمْ عَلَىٰ بَعْضٍ وَبِمَآ أَنفَقُوا۟ مِنْ أَمْوَٰلِهِمْ ۚ ﴾

*"Allahın birini digərindən üstün etdiyinə və öz mallarından xərclədiklərinə görə kişilər qadınlar üzərində himayəçidirlər"[3].*

❁ **Ərin qadın üzərində olan haqlarından;** Allaha qarşı günah olmayan işləri buyurduqda ona itaət etməsi, əri yanında olmadıqda onun malını və haqlarını qorumasıdır. Peyğəmbər (ona Allahın salavatı və

---

1 "Səhih Buxari" 5217-ci və "Səhih Müslim" 2443-cü hədislər.
2 "əl-Bəqərə", 228.
3 "ən-Nisa", 34.

salamı ona olsun) belə demişdir: *“Əgər bir kimsəyə səcdə etməyi əmr etmiş olsaydım, o zaman qadına ərinə səcdə etməyi əmr edərdim”*[1].

Başqa bir hədisdə isə belə deyir: *“Əgər ər arvadını yatağa dəvət edər, qadın boyun qaçırar və ər ona qəzəbli olaraq gecələyərsə, sabahlayana qədər mələklər o qadına lənət edərlər”*[2].

۞ **Ərin qadın üzərində olan haqlarından;** ərinin ondan kamil zövq almasını zay edəcək bir əməl etməsin, hətta bu, nafilə ibadət olsa belə. Peyğəmbərin (ona Allahın salavatı və salamı olsun) bu hədisinə əsasən: *“Əri yanında olarkən onun icazəsi olmadan qadının oruc tutması halal deyil, ərinin izni olmadan evinə heç kimsəni daxil etməsin”*[3].

Allahın Elçisi (ona Allahın salavatı və salamı olsun) ərin arvadından razı qalmasını onun Cənnətə daxil olması üçün səbəb etmişdir. İmam ət-Tirmizi Ummu Sələmənin hədisində Allahın Elçisinin (ona Allahın salavatı və salamı olsun) belə dediyini rəvayət edir: *“Hər hansı bir qadın əri özündən razı qalaraq ölərsə, Cənnətə daxil olar”*[4].

---

1 “Sünən əbu Dəvud” 2140-cı və “Sünən ət-Tirmizi” 1159-cu hədislər. Hədis həsəndir. Bax: “Silsilə əs-Səhihə”, 3366-cı hədis.
2 “Səhih Buxari” 5193-cü və “Səhih Müslim” 1436-cı hədislər.
3 “Səhih Buxari” 5195-ci və “Səhih Müslim” 1026-cı hədislər.
4 “Sünən ət-Tirmizi” 1161-ci və “Sünən İbn Macə” 1854-cü hədislər. Hədis zəifdir. Bax: “Daif Sünən ət-Tirmizi”, 10-cu hədis.

## Yeddinci haqq

## RƏHBƏRLƏRİN VƏ RƏİYYƏTİN HAQQI

Rəhbərlər - müsəlmanların işlərinin məsuliyyətini öz üzərlərinə alan kimsələrdir: istər dövlət rəhbəri kimi ümumi rəhbərlik olsun, istərsə də hər hansı bir idarənin rəisi və yaxud bir iş üzərində təyin olunan rəhbərlər kimi xüsusi rəhbərlik olsun. Bütün rəhbərlərin üzərində rəiyyətin haqqı, rəiyyətin isə onlar üzərində haqları vardır. Hər iki tərəfə vacibdir ki, bu haqları yerinə yetirsinlər.

**Rəiyyətin rəhbərlər üzərində olan haqlarından;** Allahın onları mükəlləf etdiyi və onlara vacib etdiyi əmanəti, dünya və axirət mənfəətlərini cəm edən doğru və düzgün yol üzərində seyr edərək və rəiyyətə nəsihət olaraq yerinə yetirsinlər. Bu isə möminlərin ardınca getməklədir ki, bu da Allahın Elçisinin (ona Allahın salavatı və salamı olsun) üzərində olduğu yoldur. Rəhbərlərin, rəiyyətin və onların əlinin altında olanların da səadəti elə bundadır. Rəiyyətin rəhbərdən razı qalması, onlar arasında bağlılığın yaranması, rəiyyətin onların əmrlərinə boyun əymələri və onlar barəsində mükəlləf olunduqları əmanətin qorunması üçün ən üstün olan budur. Kim Allahdan qorxarsa, insanlar da ondan qorxar, kim də Allahı razı salarsa, Allah da insanların ehtiyacı olan şeylərdə ona kifayət olar və insanları ondan razı edər. Çünki, qəlblər Allahın əlindədir, onları istədiyi kimi çevirər.

**Rəhbərlərin rəiyyət üzərində olan haqlarından;** rəhbərlərin insanlar barəsində mükəlləf olduqları işlərdə onlara nəsihət etməsi, qafilliyə düşdükdə onlara xatırlatma etməsi, haqdan batilə meyl etdikdə onlar üçün dua etməsi və Allaha qarşı günah olmayan işlərdə onların əmrini yerinə yetirməsidir. Çünki, bu cür icra edilən əmrlər sabit olur və

nizama düşür. Bunun əksi olaraq rəhbərlərə müxalif olmaq və onlara üsyan etməklə özbaşınalıq və fəsad üz verir. Buna görə də, Uca Allah Özünə və Peyğəmbərinə (ona Allahın salavatı və salamı olsun), sonra da özümüzdən olan rəhbərlərə itaət etməyi bizə əmr etmişdir. Uca Allah belə buyurur:

﴿ يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوٓاْ أَطِيعُواْ ٱللَّهَ وَأَطِيعُواْ ٱلرَّسُولَ وَأُوْلِي ٱلۡأَمۡرِ مِنكُمۡۖ ﴾

*“Ey iman gətirənlər! Allaha və Elçisinə itaət edin, həm də özünüzdən olan rəhbərlərə”*[1].

Peyğəmbər (ona Allahın salavatı və salamı olsun) belə demişdir: *“Müsəlman istər xoşu gəlsin, istərsə də gəlməsin, günahı əmr etmədikcə rəhbərlərə itaət etməsi vacibdir. Əgər günah əmr edilərsə, nə eşitmək, nə də itaət yoxdur”*[2].

Abdullah bin Ömər (Allah ondan və atasından razı olsun) belə deyir: *“Peyğəmbərlə (ona Allahın salavatı və salamı olsun) birgə səfərdə idik, bir yerdə dayandıq və bir carçı “əs-Salətu Cəmia” (bayram, istisqa və kusuf kimi namazlarda insanların toplanması üçün iqamə əvəzi deyilir) dedi. Biz Allahın Elçisinin yanına toplandıq. O, (ona Allahın salavatı və salamı olsun) belə dedi: “Allahın gönərdiyi bütün Peyğəmbərlərin üzərində haqq olaraq vacib olan; ümmətinə onlar üçün xeyir bildiyi şeyi onlara göstərsin və onlar üçün şər bildiyi şeydən onları çəkindirsin. Həqiqətən sizin bu ümmətinizin afiyəti (salamatçılığı) onun əvvəlindədir, bu ümmətdən sonra gələnlərin başlarına bəla və qəbul edilməyən işlər gələcək, bir-birinin ardınca bir-birini bəzəyən fitnələr baş qaldıracaq. Fitnə gəldikdə mömin belə deyər: “Bu mənim həlakımdır!” Başqa bir fitnə gəldikdə mömin deyər: “Bu mənim həlakımdır!” Kim oddan uzaqlaşdırılıb cənnətə daxil olmaq istəyirsə, qoy ölüm ona gəldikdə*

---

1 “ən-Nisa”, 59.
2 “Səhih Buxari” 2955-ci və “Səhih Müslim” 1839-cu hədislər.

*Allaha və axirətə iman üzərində olsun, insanların özü ilə necə davranmasını xoşlayırsa, onlarla da elə davransın. Kim bir rəhbərə beyət edərsə, artıq onunla xalis bir əhd bağlayaraq ona razılıq əlini uzatmışdır, qoy, o da rəhbərə itaət etsin. Əgər başqası gəlib rəhbərə qarşı çıxarsa, onunla vuruşun"*[1].

Bir adam Peyğəmbərdən (ona Allahın salavatı və salamı ona olsun) belə soruşur: *"Ey Allahın Elçisi! Bizə xəbər ver, əgər rəhbərlər bizdən haqqını istəyib özləri bizim haqqımızı verməzsə, bizə nəyi əmr edirsən?*

*Peyğəmbər (ona Allahın salavatı və salamı olsun) ondan üzünü döndərdi, adam yenə soruşdu.*

Allahın Elçisi (ona Allahın salavatı və salamı ona olsun) belə buyurdu*: "(rəhbərləri) eşidin və itaət edin, onlar üzərlərinə vacib olan ilə mükəlləf olublar (rəiyyətlə ədalətli davranmaq, onlara zülm etməmək və s.) və siz də üzərinizə vacib olan ilə mükəlləf olmusunuz (Allaha günah olmayan işlərdə rəhbərlərə itaət etmək ilə)"*[2].

Həmçinin mühüm olan işlərdə rəhbərlərinə yardım etmələri rəhbərlərin rəiyyət üzərində olan haqlarındandır. Beləliklə onların mükəlləf olduğu işi yerinə yetirməkdə onlara yardımçı olurlar. İşlərin öz axarında getməsi üçün hər kəs cəmiyyətdə öz işini və məsuliyyət daşıdığı rolu bilməlidir. Əgər rəiyyət rəhbərlərə məsuliyyət daşıdıqları işlərdə yardım etməzsə, işlər öz axarında getməz.

1 "Səhih Müslim" 1844-cü hədis.
2 "Səhih Müslim" 1846-cı hədis.

## Səkkizinci haqq

# QONŞULARIN HAQQI

Qonşu, sənə mənzilcə yaxın olandır və onun sənin üzərində haqqı böyükdür. Əgər qonşun üstəlik sənin həm qohumun, həm də müsəlman olarsa, onun sənin üzərində üç tərəfdən haqqı var; qonşu haqqı, qohumluq haqqı, İslam haqqı. Əgər müsəlman olar, amma qohumun olmazsa, onda onun sənin üzərində iki tərəfdən haqqı var; qonşu haqqı və İslam haqqı. Əgər qohum olar, lakin müsəlman olmazsa, onda yenə sənin üzərində iki tərəfdən haqqı var; qonşu haqqı və qohumluq haqqı. Əgər nə qohum, nə də müsəlman olmazsa, onda bir tərəfdən haqqı var; o da qonşu haqqıdır. Uca Allah Qurani Kərimdə belə deyir:

﴿ وَٱعۡبُدُواْ ٱللَّهَ وَلَا تُشۡرِكُواْ بِهِۦ شَيۡـٔٗاۖ وَبِٱلۡوَٰلِدَيۡنِ إِحۡسَٰنٗا وَبِذِي ٱلۡقُرۡبَىٰ وَٱلۡيَتَٰمَىٰ وَٱلۡمَسَٰكِينِ وَٱلۡجَارِ ذِي ٱلۡقُرۡبَىٰ وَٱلۡجَارِ ٱلۡجُنُبِ ﴾

*“Allaha ibadət edin və ona heç bir şeyi şərik qoşmayın, valideynlərə, qohum-əqrəbaya, yetimlərə, kasıblara, yaxın və uzaq qohum-qonşuya, yol yoldaşına, müsafirə və sahib olduğunuz (kölə və kənizlərə) yaxşılıq edin”*[1].

Həmçinin Peyğəmbər (ona Allahın salavatı və salamı olsun) belə demişdir: *“Cəbrail mənə qonşu haqları barədə o qədər vəsiyyət etdi, elə güman etdim ki, Cəbrail qonşuya mirasdan pay edəcək”*[2].

1 “ən-Nisa”, 36.
2 “Səhih Buxari” 6014-6015-ci və “Səhih Müslim” 2624-2625-ci hədislər.

❀ **Qonşunun qonşu üzərində olan haqlarından;** mal-dövləti, vəzifəsi və digər fayda olacaq şeylərlə ona bacardığı qədər yaxşılıq etməsidir. Allahın Elçisi (ona Allahın salavatı və salamı olsun) belə demişdir: *"Allah qatında ən xeyirli qonşu, qonşusuna ən xeyirli olanıdır"*[1].

Başqa bir hədisdə isə belə demişdir: *"Kim Allaha və axirət gününə iman edirsə, qonşusuna yaxşılıq etsin"*[2].

Daha bir hədisdə isə belə söyləmişdir: *"Yemək bişirdikdə onun suyunu bol et və qonşularına da yeməkdən nəsiblərini ver"*[3]. Ziyafət tədbirlərində qonşulara hədiyyə vermək də, onlara edilən yaxşılıqlardandır. Həqiqətən hədiyyə sevgini cəlb edir və ədavəti aradan qaldırır.

❀ **Həmçinin qonşunun qonşu üzərində olan haqlarından;** ona nə əməli, nə də sözü ilə əziyyət verməməkdir. Allahın Elçisi (ona Allahın salavatı və salamı olsun) belə demişdir: *"Allaha and olsun iman etməmişdir, Allaha and olsun iman etməmişdir, Allaha and olsun iman etməmişdir!"*

Orada olanlar dedilər: *"Kim, Ey Allahın Elçisi?"*

O, (ona Allahın salavatı və salamı olsun) *"Qonşusu onun şərindən əmin olmayan kimsə"* - dedi[4]. Başqa bir rəvayətdə isə belə demişdir: *"Qonşusu onun şərindən əmin olmayan kimsə Cənnətə girməz"*[5]. Kimin qonşusu onun şərindən əmin deyilsə, o mömin deyil və Cənnətə də girməz.

Lakin, bu gün insanların əksəriyyəti qonşu haqlarına əhəmiyyət vermir, qonşuları onların şərindən əmin deyillər. Sən daim onların bir-bir ilə münaqişə etdiyini, ayrılıq içərisində olduğunu, bir-birilərinin haqlarını tapdaladığını, bir-birilərinə söz və ya əməllə əziyyət verdiklərini

---

1 "Sünən ət-Tirmizi" 1944-cü hədis. Hədis səhihdir. Bax: "Silsilə əs-Səhihə", 103-cü hədis.
2 "Səhih Buxari" 6019-cu və "Səhih Müslim" 48-ci hədislər.
3 "Səhih Müslim" 2625-ci hədis.
4 "Səhih Buxari" 6016-ci hədis.
5 "Səhih Müslim" 46-cı hədis.

görərsən. Bütün bunlar Allahın və Rəsulunun (ona Allahın salavatı və salamı olsun) əmrinə ziddir. Odur ki, bu əməllərin nəticəsi olaraq mütləqdir ki, müsəlmanlar parçalansın, qəlbləri bir-birindən uzaqlaşsın və bir-birinə olan ehtiramları azalsın.

## Doqquzuncu haqq

## ÜMUMİ MÜSƏLMANLARIN HAQQI

Bu haqlar olduqca çoxdur, onlardan biri də Buxarinin "Səhih" hədislər toplusunda rəvayət olunmuş bu hədisdir. Peyğəmbər (ona Allahın salavatı və salamı olsun) buyurdu: *“Müsəlmanın müsəlman üzərində altı haqqı var; qarşılaşdıqda ona salam ver, səni dəvət etdikdə ona icabət et, səndən nəsihət istədikdə ona nəsihət et, asqırıb “əlhəmdulilləh” (Allaha həmd olsun) dedikdə, ona “yərhəmukəllah” (Allah sənə rəhm etsin) de, xəstələndikdə onu ziyarət et, dünyasını dəyişdikdə cənazəsində iştirak et”*[1]. Bu hədisdə müsəlmanlar arasında olan bir neçə haqlar bəyan edilir.

**Birinci haqq: Salam;** Salam vermək tərk olunmayan sünnədir, onun səbəbi ilə müsəlmanlar arasında sevgi və bağlılıq yaranır. Bu, müşahidə olunan bir təcrübədir və Peyğəmbərimiz (ona Allahın salavatı və salamı olsun) belə demişdir: *“Allaha and olsun ki, iman etmədikcə Cənnətə daxil olmazsınız, bir-birinizi sevmədikcə iman etmiş olmazsınız. Sizə elə bir şeyi xəbər verimmi ki, onu etdikdə bir-birinizi sevəsiniz? Aranızda salamı yayın”*[2].

Allahın Elçisi (ona Allahın salavatı və salamı olsun) bir kimsə ilə qarşılaşdıqda söhbətə salamla başlayar və uşaqların yanından keçdikdə onlara salam verərdi.

Sünnə olan kiçiyin böyüyə, azlığın çoxluğa, minik üzərində olanın yeriyənə salam verməsidir. Lakin Sünnənin zay olmaması üçün, buna əməl etməyə ilk haqlı olan əməl etməzsə, bu zaman digəri buna əməl

1 “Səhih Müslim” 2162-ci hədis. “Səhih Buxari”-də isə 1240-cı hədis buna yaxın ləfzdə qeyd olunub, həmçinin altı əvəzinə beş qeyd olunub.
2 “Səhih Müslim” 54-cü hədis.

etməlidir. Savabı əldə etmək üçün, əgər kiçik salam verməzsə, bu zaman böyük salam verməli və azlıq salam verməzsə, bu zaman çoxluqda olanlar salam verməlidir.

Ammar bin Yəsir (Allah ondan və atasından razı olsun) belə deyir: *"Kim özündə üç şeyi cəm edərsə, onun imanı kamil olar; nəfsinə qarşı insaflı olmaq, salamı hər yanda yaymaq, xəsislik etdiyi şeydən xərcləmək "*[1]. Salama başlamaq sünnə, salama cavab vermək isə fərzu-kifayədir, yəni bir toplum buna əməl edərsə, digərlərinin üzərindən onun vacibliyi düşər. Bir camaata salam verilər və onlardan bir nəfər salama cavab qaytararsa, digərlərinin üzərindən vaciblik düşər. Uca Allah belə buyurur:

﴿ وَإِذَا حُيِّيتُم بِتَحِيَّةٍ فَحَيُّوا۟ بِأَحْسَنَ مِنْهَآ أَوْ رُدُّوهَآ ﴾

*"Biri sizinlə salamlaşdığı zaman siz onun salamını daha da gözəl alın və ya olduğu kimi qaytarın"*[2].

Salama cavab verdikdə yalnız "xoş gəldiniz" demək kifayət deyil. Çünki bu cür demək nə verilən salamdan daha gözəl, nə də ki, olduğu kimi deyil. "Əs-Sələmu aleykum" dedikdə "aleykum əs-sələm" demək, "xoş gəldiniz" dedikdə isə, onun kimi "xoş gördük" demək lazımdır. Buna əlavə olaraq üstəlik salam da verilsə, daha yaxşıdır.

**İkinci haqq: Bir müsəlman səni dəvət etdikdə, dəvətə icabət et;** yəni səni evinə yeməyə və ya başqa bir şeyə çağırarsa, sən də get. Çağıran kimsənin qəlbinin yumşalması, sevginin və ülfətin yaranması üçün, çağrılan yerə getmək tərk olunmayan sünnədir. Toya getmək isə istisnadır, çünki bəlli olan şərtlərlə toya çağrılıdıqda getmək vacibdir. Peyğəmbərin (ona Allahın salavatı və salamı olsun) bu hədisinə əsasən:

1 "Səhih Buxari" 8-ci hədis.
2 "ən-Nisa", 86.

*"Kim toya çağrılar və getməzsə, artıq Əbu əl-Qasimə (yəni Muhammədə) üsyan etmişdir"*[1].

Peyğəmbərin (ona Allahın salavatı və salamı olsun) "səni dəvət etdikdə ona icabət et" sözü özünə yardıma və köməyə çağırmağa da şamil olunur. Sənə əmr olunub ki, onun dəvətinə icabət edəsən. Səni hər hansı bir əşyanı qaldırmağa və ya atmağa və yaxud başqa bir iş üçün çağırarsa, ona yardım etməklə əmr olunmusan. Çünki Peyğəmbər (ona Allahın salavatı və salamı olsun) belə buyurur: *"Mömin mömin üçün bina kimidir, bir-birini gücləndirər"*[2].

۞ **Üçüncü haqq: Səndən nəsihət istədikdə ona nəsihət et;** yəni səndən bir şey barədə özünə nəsihət etməyini tələb edərsə, ona nəsihət et. Çünki, bunun özü dindəndir. Necə ki, Peyğəmbər (ona Allahın salavatı və salamı olsun) belə buyurur: "Din nəsihətdir: Allah üçün, Onun Kitabı, Elçisi, müsəlman rəhbərlər və bütün müsəlmanlar üçün"[3]. Allaha üçün nəsihət onu ibadətdə təkləşdirmək və s. peyğəmbər üçün nəsihət isə yəni onun əmrlərinə itaət etmək, qadağan etdiklərindən çəkinmək.

Sənin yanına gəlib nəsihət istəməz və etdiyi əməldə ona zərər və ya günah olarsa, sənin yanına gəlməsə belə sənə vacibdir ki, ona nəsihət edəsən. Çünki bu, müsəlmanların üzərindən zərəri və münkəri aradan qaldırmaqdır. Əgər onun etdiyi əməldə bir zərər və ya günah yoxdursa və sən digər bir əməli onun etdiyindən daha məsləhətli görürsənsə, bu halda ona bir şey demək sənə vacib deyil. Lakin, o səndən nəsihət tələb edərsə, bu zaman sən nəsihət etməlisən.

---

1 "Səhih Müslim" 1432-ci və "Səhih Buxari" 5177-ci hədis bu mənada rəvayət edilib.
2 "Səhih Buxari" 2446-cı və "Səhih Müslim" 2585-ci hədislər.
3 "Səhih Müslim" 55-ci hədis. Allah üçün nəsihət dedikdə: onu ibadətdə təkləşdirmək, Ondan başqasına ibadətin heçbir növünü sərf etməmək, Onun əmrlərini yerinə yetirib qadağan etdiyi şeylərdən uzaq durmaq və s. Peyğəmbər üçün nəsihət isə, yəni onun bizə verdiyi xəbərləri təsdiqləmək, onun əmrlərini icra etmək, qadağan etdiklərindən çəkinmək, onun əmrinin qarşısına başqa bir kimsənin sözünü qoymamaq və s.

**Dördüncü haqq: Asqırıb "əlhəmdulilləh" deyərsə, ona təşəkkür olaraq "yərhəmukallah" de.** Əgər asqırar və "əlhəmdulilləh" deməzsə, onun sənin üzərində haqqı yoxdur və ona "yərhəmukəllah" deyilməz. Çünki o asqırdıqda "əlhəmdulilləh" demədi, bunun cəzası da ona "yərhəmukəllah" ifadəsinin deyilməməsidir.

Asqıran kimsə "əlhəmdulilləh" dedikdə, ona "yərhəmukəllah" ifadəsinin deyilməsi fərzdir. Asqırana vacib olan isə cavab olaraq "yəhdikumullahu və yuslih bələkum" ("Allah səni doğru yola hidayət etsin və sənin işlərini islah etsin") deməsidir. Əgər ard-arda asqırmağa davam edərsə, üç dəfə asqırığın hər dəfəsində ona "yərhəmukəllah" ifadəsi deyilər, dördüncü dəfə asqırarsa, bu zaman ona "yərhəmukəllah" əvəzinə "afəkəllah" ("Allah sənə afiyət, şəfa versin") ifadəsi deyilər.

**Beşinci haqq: Xəstələndikdə onu ziyarət et;** xəstələndikdə onu ziyarət etmək, xəstənin müsəlman qardaşlarının üzərində olan haqlarındandır. Onu ziyarət etmək vacibdir. Xəstə sənin qohumun, dostun və ya qonşun olarsa, onu ziyarət etmək vacibliyi sənin üzərində daha da böyük olar.

Xəstə ziyarəti xəstənin halına və xəstəliyin vəziyyətinə əsasən edilməlidir. Çünki bəzən xəstənin tez-tez, bəzən isə az ziyarət edilməsi tələb olunur. Yaxşı olar ki, xəstənin halı və xəstəliyin vəziyyəti nəzərə alınsın. Xəstəni ziyarət edən kimsənin onun halı barədə soruşması, ona dua etməsi, ona ümid və nicat qapısını açması sünnədəndir. Bu, xəstənin sağlamlığa qayıtması və şəfa tapması üçün ən böyük səbəblərdəndir. Həmçinin gözəl üslübla, qorxutmadan xəstəyə tövbəni xatırlatmaq və ona belə demək gərəkir: "Sən bu xəstəliyin səbəbi ilə xeyirlər qazanırsan, Allah bu xəstəliklə xətaları bağışlayır, günahları silir, sən bu xəstəliyin səbəbi ilə çoxlu zikir, dua və bağışlanma dilədiyinə görə böyük mükafatlar qazanırsan".

**Altıncı haqq: dünyasını dəyişdikdə cənazəsində iştirak etmək.** Cənazədə iştirak etmək müsəlmanın qardaşı üzərində olan haqlarındandır və bunda böyük savab var.

Peyğəmbərin (ona Allahın salavatı və salamı olsun) belə dediyi rəvayət olunub: *“Kim cənazədə namaz qılmaqla iştirak edərsə, ona Qirat var, kim də cənazənin ardınca gedər və dəfn olunana qədər iştirak edərsə, ona iki Qirat var".*
Bir nəfər, *“İki qirat nə deməkdir?”* - deyə soruşdu.
O, (ona Allahın salavatı və salamı olsun) *“İki böyük dağ”* -dedi[1].

**Yeddinci haqq: Müsəlmanın qardaşı üzərində olan haqlarından; ona əziyyət verməməsidir.** Çünki müsəlmanlara əziyyət vermək böyük günahlardandır:

﴿ وَٱلَّذِينَ يُؤۡذُونَ ٱلۡمُؤۡمِنِينَ وَٱلۡمُؤۡمِنَٰتِ بِغَيۡرِ مَا ٱكۡتَسَبُواْ فَقَدِ ٱحۡتَمَلُواْ بُهۡتَٰنٗا وَإِثۡمٗا مُّبِينٗا ﴾

*“Mömin kişilərə və mömin qadınlara etmədikləri bir işdən ötəri əziyyət verənlər, üzərlərinə açıq aydın böhtan və böyük günah götürmüşlər”*[2].

Müsəlman qardaşına əziyyət verən kimsədən əksər hallarda Allah axirətdən öncə bu dünyada intiqam alar. Allahın Elçisi (ona Allahın salavatı və salamı olsun) belə buyurmuşdur: *“Bir-birinizə qəzəblənməyin, bir-birinizə arxa çevirməyin, Allahın qardaş qulları olun. Müsəlman müsəlmanın qardaşıdır, ona zülm etməz, onu yalqız buraxmaz, onu alçaltmaz. Müsəlmanın qardaşını alçaltması, onu təhqir etməsi bu kimsəyə şər olaraq kifayət edər. Müsəlmanın hər bir şeyi müsəlmana haramdır, onun qanı, malı və irzi ona haramdır”*[3].

1 “Səhih Buxari” 1325-ci və “Səhih Müslim” 945-ci hədislər.
2 “əl-Əhzab”, 58.
3 “Səhih Buxari” 6065-6076-cı və “Səhih Müslim” 2564-cü hədislər.

Müsəlmanın müsəlman qardaşı üzərində haqları olduqca çoxdur. Ola bilsin ki, Peyğəmbərin (ona Allahın salavatı və salamı olsun) ***“Müsəlman müsəlmanın qardaşıdır”*** ifadəsi, bu barədə bütün mənaları özündə cəm etsin. Müsəlman bu qardaşlığın tələb etdiyini yerinə yetirdiyi və bunun üçün çalışdığı müddət boyunca bütün xeyirlər ona gələr və o, bütün şərlərdən uzaq durar.

## Onuncu haqq

## QEYRİ MÜSƏLMANLARIN HAQQI

"Qeyri-müsəlmanlar" dedikdə bütün kafirlər bura aid edilir. Qeyri-müsəlmanlar dörd qisimdir: hərbiyyun[1], mustəminun[2], muahidun[3] və zimmiyyun[4].

**Hərbiyyun;** onların üzərimizdə heç bir qorunma və nəzarət edilmə haqları yoxdur.

**Mustəminun;** Uca Allahın bu ayəsinə görə onların əmin-amanlığına zəmanət olan müəyyən vaxt və məkanlarda bizim üzərimizdə qorunma və nəzarət haqları var:

﴿ وَإِنۡ أَحَدٞ مِّنَ ٱلۡمُشۡرِكِينَ ٱسۡتَجَارَكَ فَأَجِرۡهُ حَتَّىٰ يَسۡمَعَ كَلَٰمَ ٱللَّهِ ثُمَّ أَبۡلِغۡهُ مَأۡمَنَهُۥۚ ذَٰلِكَ بِأَنَّهُمۡ قَوۡمٞ لَّا يَعۡلَمُونَ ﴾

*“Əgər müşriklərdən biri səndən aman diləsə, ona aman ver ki, Allahın sözünü eşitsin. Sonra onu özünün əmin olduğu yerə çatdır. Çünki onlar bilməyən bir qövmdür”[5].*

**Muəhidlərə isə;** onlarla aramıza ittifaq olduğu müddət boyunca, əhdi-peyman üzərində doğru olduqları, bu ittifaqdan bir şeyi əsikiltmədikcə,

1 Müsəlmanlar ilə aralarında müharibə olan kafirlər.
2 Müsəlmanlar tərəfindən onlara verilən əmin-amanlıqla İslam ölkəsinə daxil olan kimsə, məs; səfirlər, səyahətçilər və s.
3 Müsəlmanlar ilə aralarında müəyyən vaxta qədər əhdi-peyman bağlanan kafirlər, necə ki, Peyğəmbər (ona Allahın salavatı və salamı olsun) Qureyş kafirləri ilə “Hüdeybiyyə sülhü” -nü bağlamışdı.
4 Müsəlmanlara cizyə (pul) ödəyərək onların ölkəsində qalan kafirlər.
5 “ət-Tövbə”, 6.

üzərimizə bir kimsəni təyin etmədikcə və dinimizə tənə etmədikcə, bu əhdə vəfalı olmaq bizə vacibdir. Uca Allah belə buyurur:

﴿ إِلَّا ٱلَّذِينَ عَٰهَدتُّم مِّنَ ٱلْمُشْرِكِينَ ثُمَّ لَمْ يَنقُصُوكُمْ شَيْـًٔا وَلَمْ يُظَٰهِرُوا۟ عَلَيْكُمْ أَحَدًا فَأَتِمُّوٓا۟ إِلَيْهِمْ عَهْدَهُمْ إِلَىٰ مُدَّتِهِمْ ۚ إِنَّ ٱللَّهَ يُحِبُّ ٱلْمُتَّقِينَ ﴾

*“Saziş bağladıqdan sonra onu pozmamış və sizin əleyhinizə heç kəsə yardım göstərməmiş müşriklər istisnadır. Onlarla olan müqavilənizi, müddəti bitənədək yerinə yetirin. Həqiqətən Allah müttəqiləri sevir”[1].*

Başqa bir ayədə isə Uca Allah belə buyurur:

﴿ وَإِن نَّكَثُوٓا۟ أَيْمَٰنَهُم مِّنۢ بَعْدِ عَهْدِهِمْ وَطَعَنُوا۟ فِى دِينِكُمْ فَقَٰتِلُوٓا۟ أَئِمَّةَ ٱلْكُفْرِ ۙ إِنَّهُمْ لَآ أَيْمَٰنَ لَهُمْ ﴾

*“Əgər kafir başçılar əhd bağladıqdan sonra andlarını pozub dininizə böhtan atsalar, onlarla vuruşun, çünki, onlar anda əhəmiyyət verməzlər”[2].*

**Zimmilər isə;** bu dört qisim qeyri-müsəlman içərisində üzərimizdə ən çox haqqı olan kimsələrdir, çünki onlar ödədikləri cizyə ilə müsəlman ölkələrində, onların himayəsi və nəzarəti altında yaşayırlar.

Müsəlman rəhbərə vacibdir ki, istər can, istərsə də mal və irzə dair hökmlərdə onlara İslamın hökmləri ilə hökm versin, özlərinin də haramlığına etiqad etdikləri şeylərdə onlara Allahın hüdudlarını tətbiq etsin. Həmçinin müsəlman rəhbərə vacibdir ki, onları himayə etsin və onlara əziyyət verməsin.

---

1 “ət-Tövbə”, 4.
2 “ət-Tövbə”, 12.

Onların müsəlmanlardan geyindikləri libasları ilə seçilmələri də vacibdir. Məsələn, zınqırov, xaç kimi İslamada münkər olan və öz dinlərinin şüarı olan heç bir şeyi aşkarda etmələri icazəli deyil. Elm əhlinin kitablarında bu barədə məlumat mövcud olduğu üçün, zimmə əhlinin əhkamları barədə bəhsi çox uzatmırıq.

Aləmlərin Rəbbi olan Allaha həmd olsun, Peyğəmbərimiz Muhamməda, onun ailəsinə və bütün əshabına Allahın salavatı və salamı olsun!

# « Mündəricat »

Ön söz ........................................ 2

Allahın haqqı ........................................ 4

Allahın Elçisinin haqqı ........................................ 9

Valideyinlərin haqqı ........................................ 12

Övladların haqqı ........................................ 16

Qohumların haqqı ........................................ 20

Ər - Arvad haqları ........................................ 24

Rəhbərlərin və rəiyyətin haqqı ........................................ 30

Qonşuların haqqı ........................................ 33

Ümumi müsəlmanların haqqı ........................................ 36

Qeyri müsəlmanların haqqı ........................................ 42